# Göyərçin

№ 11-12
2001
ISSN-0207-4710



# ÜÇ ŞAHZADƏ

### HİND NAĞILI

Qədim zamanlarda bir şah yaşayırdı. Onun bir-birindən gözəl, bir-birindən ağıllı üç oğlu var idi. Hökmdar qocaldığı üçün istirahətə çıxmaq, oğlanlarından birini şah tə'yin etmək istədi. Ancaq nə qədər fikirləşdisə, bir qərara gələ, oğlanlarının hansının şahlığa daha çox layiq olduğunu müəyyənləşdirə bilmədi. Ağıllı adamlar məsləhət gördülər ki, oğlanların hərəsinə eyni miqdarda pul verib səyahətə göndərsinlər. Kim həmin pulları xərcləyib daha çox var-dövlətlə qayıtsa, onu şah seçərik.

Belə də etdilər. Oğlanların hərəsinə eyni miqdarda pul verib, onları uzaq səfərə yola saldılar. Gəmi üzüb, üzüb bir sahilə çıxdı. Şahzadələr şərtləşdilər ki, bir ildən sonra harada görüşəcəklər. Oğlanlar ayrılıb, hərəsi bir tərəfə getdi.

Böyük oğlanlar öz bəxtlərini ticarətdə sınamaq qərarına gəldilər. Kiçik qardaş isə nə edəcəyini bilmirdi. Birdən onun qarşısına qoca bir kişi çıxdı və oğlandan hardan gəlib, hara getdiyini soruşdu. Kiçik şahzadə başına gələnləri danışdı. Qoca ona məsləhət verdi ki, bütün pullarını buğdaya verib sahildə əksin. Taxıl yetişəndə onu çuval-çuval dənizə tökdürsün və səbrlə işin axırını gözləsin.

Qoca bu sözləri deyib qeyb oldu.

Oğlan qocanın dediyi kimi elədi. Çoxlu buğda əkdirib, taxılı dənizə tökdürdü. Bir də baxıb gördü ki, nə pulu, nə də taxıl qalıb. Oğlan nə edəcəyini bilmədi. Fikir-xəyal içində mürgüyə getdi.

Hər gün dənizdə buğda yeməyə öyrəşən balıqlar buğdanın yoxa çıxdığını görüb narahat oldular. Həmin qoca balıqların padşahına dedi ki, sizi yemləyən cavan bir oğlandır. Ancaq indi onun pulu qurtarıb. Balıqlara əmr elə ki, dənizin dibindəki bütün mirvariləri, inciləri sahilə gətirib çıxarsınlar.

Balıqlar dəryanın dibinə baş vurub ən qiymətli inciləri sahilə gətirdilər. Oğlan yuxudan ayılanda gözlərinə inana bilmədi. Mirvarilərdən bir az satdırıb, yenə də buğda aldı, onu yerə səpib biçdirdi, yenə də balıqları yemlədi. Mirvariləri mal təzəyinin içinə qoyub qurutdu və üst-üstə yığdı.

Görüş vaxtı çatdı. Alverlə xeyli pul qazanan qardaşlar kiçik şahzadənin yığdığı təzəklərə baxıb güldülər, onu ələ saldılar.

Qardaşlar öz var-dövlətlərini gəmiyə yükləyəndə kiçik qardaş da öz təzəklərini gəmiyə daşıdı. Yolda odun qurtardığı üçün yandırmağa heç nə olmadı. Böyük qardaşlar kiçik qardaşdan xahiş etdilər ki, yandırmaq üçün bir az təzək versin. Kiçik şahzadə gizlicə təzəkləri bölüb, içindəki mirvariləri götürdü və onları yandırmaq üçün qardaşlarına verdi.

Ölkədə şahzadələri çox yaxşı qarşıladılar. Hər kəs öz başına gələnlərdən danışdı. Növbə kiçik qardaşa çatanda adamlar onun gətirdiyi təzəklərə təəccüblə, istehza ilə baxdılar. Oğlan təzəkləri bölür, aralarında gizlədiyi mirvariləri ortaya tökürdü. Hamı çaşıb qalmışdı. Bərq vuran mirvarilər o qədər çox idi ki...

Adamlar kiçik qardaşı şah seçdilər. Kiçik qardaş şah seçiləndən sonra qardaşları ilə ədavət aparmadı, onlara da layiqli vəzifələr verdi. Ölkədə hamı şad, xoşbəxt yaşamağa başladı.

Tərcümə edib işləyəni
*R. ƏLİYEV*

Rəssam *İlqar TOFİQOĞLU*

